**Sədrdən ön söz**

"Şəffaflıq Azərbaycan" təşkilatının idarə heyəti və üzvləri adından işimizə göstərdiyiniz marağa görə sizə minnətdarlığımızı bildirmək istərdim. 2007-ci il Azərbaycan və təşkilatımız üçün vacib il idi: 2004-2006-ci illərdə icra olunan Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Proqramının davamı olaraq, hökumət 2007-2011-ci illər üzrə "Korrupsiyaya Qarşı Mübarizə və Şəffaflığın artırılması üzrə" Milli Strategiyanı qəbul edib. "Şəffaflıq Azərbaycan" təşkilatı Strategiyaya uyğun olaraq, bu sahədə hökumətin strateji tərəfdaşı sayılır. Bu il biz, mövcud olan Bakı, Gəncə, Lənkəran və Quba mərkəzlərindən əlavə Şəkidə yeni mərkəzimizi açdıq. Mərkəzlərimiz sadə vətəndaşlara pulsuz maarifləndirmə və hüquqi yardım göstərməkdən əlavə, bir sıra dövlət strukturlarında (polis əməkdaşları, hərbçilər, müəllimlər və s.) seminar-müşavirələr keçirib.

Həmçinin bu il Bakı Fond Birjası ilə həyata keçirilən 27 aylıq əməkdaşlıq layihəsi başa çatmış; İşgüzar dairələrdə Korrupsiyanın Qavranılmasına dair Sorğu dərc edilmiş, və USAİD təşkilatı və Azərbaycan Hökumətinin maliyyə yardımı ilə Transparency İnternational Təşkilatının Regional İllik Konfransı keçirilmişdir. Qeyd olunan tədbirdə, 80-a yaxın beynəlxalq, 200-ə yaxın yerli ekspert iştirak edib.

Fuad Süleymanov,
İdarə heyətinin sədri

**Transparency International təşkilatı haqqında**

Transparency International bütün dünyada korrupsiya əleyhinə mübarizəyə başçılıq edən beynəlxalq qeyri-hökumət təşkilatıdır. Beynəlxalq katibliyi Berlində yerləşən Transparency İnternational təşkilatı dünyanın 90-dan çox ölkəsində yerləşən milli bölmələri vasitəsilə həyata keçirilən antikorrupsiya fəaliyyətini əlaqələndirir. Bu bölmələr özlərinin siyasi xəttini müəyyənləşdirməkdə və fəaliyyətləri üçün maliyyə durumunun artırılmasında azad seçimə malik olan müstəqil yerli QHT-lərdir. Transparency İnternational göstərilən prinsipi özünə rəhbər tutur: "Korrupsiya dövlətin xüsusi bir halı olduğundan, yerli təşkilatların fəaliyyəti göstərilən hər hansı xarici təsirdən və ya cəhddən daha effektli ola bilər."

**Şəffaflıq Azərbaycan haqqında**

Şəffaflıq Azərbaycan 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyətinin və elmi dairələrin nümayəndələri tərəfindən təsis olunmuş və tam səlahiyyətli yerli bölmə kimi 2001-ci ilin Oktyabrında Transparency İnternational təşkilatı tərəfindən akkreditasiya olunmuş, 2006-cı ildə isə yenidən akkreditasiyadan keçmişdir. Biz əsasən ictimaiyyətin bilik səviyyəsinin artırılması, işgüzar etika sahəsində işləyir və Azərbaycanda korrupsiyanın səbəblərini, formalarını və bu təhlükəli ictimai amilin azaldılması yollarını araşdırırıq. Biz həmçinin korrupsiyanın şahidləri və qurbanları olan vətəndaşlara hüquqi yardım göstərir və hökumət strukturlarına siyasi və qanunvericilik aktlarının hazırlanmasında köməklik göstəririk.

**Korrupsiya Qavrama İndeksi 2007**

2007-ci ilin Sentyabrın 27-də Transparency İnternational özünün ən məşhur məhsulunu nəşr etdi – 2007-ci il üçün Korrupsiyanı Qavrama İndeksi. Bu sənəd ictimaiyyətdə və hökumət strukturlarında korrupsiyanın olduğunu qəbul edən iş adamlarının və ölkə ekspertlərinin, ölkə vətəndaşlarının və əcnəbilərin yaşadıqları dövlətləri müəyyən dərəcələr üzrə qiymətləndirir. Bu il Azərbaycan 2.1 bal alaraq (korrupsiyadan azad olmuş ölkələrə verilən cəmi 10 baldan) 180 ölkə arasında 148-ci yeri tutmuşdur.

*Azərbaycan Respublikasının Transparency İnternational-ın Korrupsiya Qavrama İndeksində 2000-2007-ci illər üçün yeri və qiymətləndirilməsi*

| İl | Sıra | Sorğu keçirilmiş ölkələrin sayı | Ölkələrin qiymətləndirilməsi 0 (çox zəif), 10 (əla) |
|---|---|---|---|
| **2000** | **87** | **90** | **1.5** |
| **2001** | **84** | **91** | **2.0** |
| **2002** | **95** | **102** | **2.0** |
| **2003** | **124** | **133** | **1.8** |
| **2004** | **140** | **146** | **1.9** |
| **2005** | **137** | **159** | **2.2** |
| **2006** | **130** | **163** | **2.4** |
| **2007** | **148** | **180** | **2.1** |

Aşağıda verilən diaqram Azərbaycanın 2000-2007-ci illər üçün Korrupsiyanı Qavrama İndeksindəki mövqeyini əks etdirir.




**Şəffaflıq Azərbaycan təşkilatının dövlətdə vətəndaş cəmiyyəti institutları arasında yeri**

Bölmə Azərbaycanda vətəndaşları həyata keçirilən İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət Mərkəzi layihəsi vasitəsilə hüquqi yardımla təmin etməklə kiçik məmur rüşvətxorluğuna qarşı mübarizəni gücləndirməyə köməklik göstərən yeganə vətəndaş cəmiyyətidir. Bölmə tamamilə aydınlıqla əhali və rüşvətxor məmurlar arasında effektiv sədd rolunu oynadığını və həmçinin korrupsiyaya qarşı mübarizədə hökumət – QHT əməkdaşlığının məhsuldarlığını nümayiş etdirdi.

Bölmənin digər əhəmiyyətli töhfəsi işgüzar inzibatçılıq və hüquq fakültələri tələbələri ilə yanaşı kiçik və orta sahibkarlar arasında işgüzar etika bacarıqlarının artırılması, həmçinin yerli kiçik və orta sahibkarlar arasında İşgüzar Etika kodeksi konsepsiyasının yayımlanmasıdır.

Bölmənin Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri QHT şəbəkələri kimi xidmət göstərməklə yanaşı regionlardakı fəal gəncləri başlanğıc təlimləri ilə təmin edir. Bakıda yerləşən mərkəzi ofis isə korrupsiya sahəsində ekspertizanın aparılması və ölkədə korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşır.

**Bizim donorlar**

Britaniya Hökuməti (Xarici İşlər Nazirliyi və Qlobal İmkanlar Fondu)

ATƏT-in Bakı ofisi

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və ABA CEELI

Azərbaycan Hökuməti

Transparency International təşkilatı

**2007-ci il Layihələri**

- ALAC – İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzi Layihəsi (Bakı, Gəncə, Lənkəran), donor USAID və ABA CEELI, (Bakı və Gəncə – 6 ay, Yanvar - İyun 2007, Lənkəran 8.5 ay – 15 Oktyabr 2006 - İyun 2007)
- 5 ALAC Mərkəzləri üçün potensialın artırılması, donor ATƏT, (4 ay, Noyabr 2006 – Fevral 2007)
- ALAC Səki, donor ATƏT, (11 ay – Fevral-Dekabr 2007)
- ALAC Quba, donor ATƏT, (11 ay – Fevral-Dekabr 2007)
- ALAC Mərkəzləri üçün potensialın artırılması, (4 ay, Sentyabr – Dekabr 2007)
- Korporativ İdarəetmə və Şəffaflıq Azərbaycan biznesinə çağırış kimi, donor Britaniya səfirliyi və Qlobal İmkanlar Fondu (Oktyabr 2005 - Dekabr 2007)
- Transparency International 2007-ci il Regional İllik Konfransı, donor Azərbaycan Hökuməti və USAİD, (Aprel - Avqust 2007)
- İşgüzar dairələrdə keçirilən sorğu, donor Statoil Azerbaijan şirkəti. (İyul 2005 - Dekabr 2007)

**ALAC – İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzi Layihəsi**

ALAC layihəsinin məqsədi "Vətəndaşlara cəmiyyətdə baş verən korrupsiya halları ilə mübarizədə fəal iştiraka cəlb etməkdir". Layihənin əsas hədəf qrupu informasiya və məhkəmə orqanlarına birbaşa çıxışa malik olmayan sadə vətəndaşlardır.

*Hüquqi yardım.* Antikorrupsiya qaynar xətti şəhərdən kənarda yaşayan hər bir vətəndaşa korrupsiya ilə bağlı hər hansı məlumatı vermək üçün rahat vasitədir. Qaynar xətt həmçinin üzbəüz məsləhət, şikayətlər üçün real hadisələrin mərkəzlərə yönəldilməsinə imkan yaradan "filtr" mexanizmi kimi fəaliyyət göstərir. Qaynar xətdə layihə hüquqşünasının rəhbərliyi altında könüllü çalışan hüquq fakültələrinin tələbələri işləyirlər. Mərkəzlərə həmçinin yazılı və web-site vasitəsilə də müraciət etmək mümkündür, lakin təcrübə göstərir ki bu daha az effektlidir, belə ki çox az adam korrupsiya ilə bağlı halları yığcam şəkildə ifadə etməyə meyllidir.

İlk baxışdan, əgər qaynar xətlə verilən məlumatda korrupsiya faktını özünü açıq-aşkar təsdiqlənirsə, hüquqşünasla üzbəüz görüş zamanı vətəndaş daha geniş hüquqi yardım və məsləhətlə təmin olunur. Bu müştərilərə lazımi səviyyədə şikayət ərizələrinin yazılmasında və iddianın hazırlanmasına dair düzgün istiqamətləndirmə məsləhətlərini verməklə yanaşı korrupsiya hallarını izah edilməsinə və aşkarlanmasına dair köməyi əhatə edir. Şəffaflıq Azərbaycan fərdi hallarla bağlı təmsilçilik etmir və onlarla birbaşa məşğul olmur. O, daha çox, şikayətçilərə fəaliyyət etməyə imkan yaradılır.

*İctimai maraqların müdafiəsi.* Yalnız fakta əsaslanmış müdafiə ALAC layihəsinin uğuruna tənqidi münasibət doğura bilər. Həqiqətən isə bu ALAC layihəsini sırf hüquqi yardım klinikalarından fərqləndirən və müdafiənin mərkəzində duran əsas amildir. Başqa sözlə desək, real şikayətlər əsasında formalaşdırılmış baza müdafiə kampaniyasının əsası kimi istifadə olunur. Şəffaflıq Azərbaycan bır sıra müdafiə üsullarından (mütəmadi mətbuat konfransları, radio, telefon, məsləhət və nəşrlər) istifadə edir.

*Maarifləndirmə.* Antikorrupsiya maarifləndirməsi xüsusi dinləyici qrupu üçün təşkil olunur: kənd əhalisi, məcburi köçkünlər, tələbələr, dövlət məmurları və s.

*Potensialın artırılması:* Bu məqsədlə dövlət orqanlarına şikayətlərin baxılması prosesində potensialın artırılmasına yardım edilir. Şəffaflıq Azərbaycan təşkilatı Təhsil Nazirliyi ilə əlverişli işçi əlaqələrə malikdir və Nazirliyin antikorrupsiya işçi qrupunun üzvüdür.

Şəffaflıq Azərbaycan həmçinin hökumətin, vətəndaş cəmiyyətinin və KİV-in iştirakı ilə antikorrupsiya şəbəkəsinin üzvüdür.

*Mobil treninq və seminarlar vasitəsilə məlumatlılığın artırılması kampaniyası:* Şəffaflıq Azərbaycan 2006-cı ilin sonundan başlayaraq, Britaniya Səfirliyi və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi ilə müxtəlif əhali qrupları üçün (QHT fəalları, əlillər, kənd əhalisi, milli azlıqlar, qaçqınlar və məcburi köçkünlər, dövlət rəsmiləri və s.) üçün məlumatlılığın artırılması xarakterli tədbirlər təşkil edir. Beş mərkəz (Bakı, Gəncə, Lənkəran, Quba və Şəki) vətəndaşlardan 7229 telefon şikayəti qəbul etmiş, onların 1976-na hüquqi yardım göstərilmiş, 876 nəfər isə yazılı olaraq şikayət ərizəsi ilə çıxış etmişdir. Bu cür geniş əhatəli nəticə il ərzində 306 seminarın keçirilməsinin nəticəsi olaraq mümkün olmuşdur. Əsasən kənd əhalisi və dövlət məmurları üçün təşkil olunan seminarlarda 6,823 nəfər iştirak etmişdir.





*Yuxarıdakı şəkillər: Kənd əhalisi üçün keçirilən seminarlar*

***Aşağıdakı diaqram: 2007-ci il üzrə daxil olan şikayətlərin sayı***




***Aşağıdakı diaqram:*** *2007-ci il üzrə daxil olan şikayətlərin sahələr üzrə bölgüsü (7229 müraciət)*




Yuxarıdan göründüyü kimi, layihənin 2005-ci ildə icrasından başlayaraq 2007-ci ilin Dekabrın 31-dək əhalinin ən çox şikayətləndiyi sahələr bunlardır: məhkəmə sistemi, polis, təhsil, bələdiyyə və yerli icra hakimiyyəti orqanları.

**Digər fəaliyyət və tədbirlər**

- Ədliyyə Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Kommisiyasının birgə təşkil etdiyi notariat işçilərinin seçimi ilə bağlı keçirilən yazılı imtahan prosesində müşahidəçi qismində iştirak.
- Ədliyyə Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Kommisiyasının birgə təşkil etdiyi hakimlərin seçimi ilə bağlı keçirilən yazılı imtahan prosesində müşahidəçi qismində iştirak.
- Korrupsiya fenomenini ifşa etmək məqsədilə gənc və peşəkar rəssamların əl işlərindən ibarət "Korrupsiya ilə üzbəüz" adlı Karikatura sərgisi.

**Bizim tərəfdaşlarımız**

Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Komissiyası
Təhsil Nazirliyi
Daxili İşlər Nazirliyi
Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti
Müdafiə Nazirliyi
Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı mübarizə İdarəsi
Konstitusiya Araşdırmaları Fondu
Sahibkarlığın İnkişafı Fondu
Azərbaycan Marketinq Cəmiyyəti
Korrupsiya və Cəmiyyət jurnalı

Təhsil və Tədrisə Yardım Mərkəzi
İnsan Hüquqları Cəmiyyəti
Hüquqi Təhsil Cəmiyyəti
Azərbaycan Hüquqşünaslar Cəmiyyəti
Avrasiya Hüquqşünaslar Cəmiyyəti
Gənc Hüquqşünaslar Birliyi
Korrupsiyaya Qarşı Mübarizə Fondu
QHT-lərin Antikorrupsiya şəbəkəsi

**2007-ci il nəşrləri**

- Azərbaycan islahatların kağız üzərində qalması və onların icrası arasında qalıb, Transparency International Qlobal Korrupsiya Hesabatı 2007

**İdarə heyətinin üzvləri**

| | **Adı və soyadı** | **Vəzifəsi** | **Rolu** |
|---|---|---|---|
| 1 | Fuad Süleymanov | Hüquq elmləri namizədi, ACİ-YF Vətəndaş Cəmiyyəti Proqramı üzrə Menecer | Təsisçi<br><br>İdarə heyətinin sədri |
| 2 | Sabit Bağırov | Sahibkarlığın və Bazar iqtisadiyyatının inkişafına yardım Fondunun prezidenti, texniki elmlər namizədi | Təsisçi<br>İdarə heyətinin keçmiş sədri |
| 3 | Dürdanə Məmmədova | Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Konstitusiya hüququ məsələləri üzrə şöbə müdiri, Hüquq Elmləri doktoru | Təsisçi<br><br>İdarə heyətinin üzvü |
| 4 | Rəna Səfərəliyeva | Filologiya Elmləri Doktoru, Azərbaycan Dillər Universitetinin İngilis dilinin stilistikası kafedrasının dosenti | Təsisçi<br><br>İcraçı direktor |
| 5 | Rəşid Hacıyev | Direktor, Media Hüquqları İnstitutu | İdarə Heyətinin üzvü |
| 6 | Intiqam Əliyev | Direktor, “Advocate Service” özəl hüquq firması | İdarə Heyətinin üzvü |
| 7 | Ənnağı Hacıyev | Azərbaycan Hüquqşünaslar Assosiasiyasının prezidenti | İdarə Heyətinin üzvü |

**Bizim əməkdaşlarımız və kontaktlar:**

**Website: www.transparency-az.org  və www.alac-az.org**

| | | | | |
|---|---|---|---|---|
| | | **Bakı ofisi**<br>Bakı, Azərbaycan, AZ 1001<br>Cəfər Cabbarlı küç 16, floor 1, apt 7<br>Tel: (99412) 418 11 09; 497 68 15<br>Tel/Faks: (99412) 596 20 38<br>Qaynar xətt: (088) 707 07 07<br>E-mail transpaz@azeronline.com | | |
| | **Vəzifəsi** | **Adı və Soyadı** | **Təhsil** | **E-mail** |
| 1 | İcraçı direktor | Rəna Səfərəliyeva | Moskva Xarici Dillər İnstitutu, Ümumi Dilçilik Elmləri namizədi, Azərbaycan Dillər Universiteti, Filologiya Elmləri doktoru | rena@transparency-az.org |
| 2 | Layihənin baş koordinatoru | Ceyhun Atayev | Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi, Magistr dərəcəsi | jeyhun@transparency-az.org |
| 3 | Baş hüquqşünas | Yusif Ağayev | Qazaxıstan Dövlət Universiteti, Hüquq üzrə magistr dərəcəsi | yusif@transparency-az.org |
| 4 | Baş hüquqşünas köməkçisi | Cəmilə Razzaqova | Bakı Dövlət Universiteti, Hüquq fakültəsinin 4-cü kurs tələbəsi | jamilya@transparency-az.org |
| 5 | Layihə köməkçisi | Aysel Ağayeva | Xəzər Universiteti, İqtisadiyyat fakültəsinin 2-ci kurs tələbəsi | aysel@transparency-az.org |
| 6 | İnzibati /maliyyə meneceri | Zəminə Əliyeva | Bakı Kompyuter Kolleci, İdarəçilik və İT üzrə diplom | zamina@transparency-az.org |
| 7 | Mühasib | Natəvan Hacıyeva | Daşkənd İctimai İqtisad İnstitutu, maliyyə işi üzrə magistr dərəcəsi | natavan@transparency-az.org |
| 8 | İctimaiyyətlə Əlaqələr üzrə Mütəxəssis | Yusif Abasov | Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər üzrə magistr dərəcəsi | yusifa@transparency-az.org |
| | | **Gəncə mərkəzi**<br>Gəncə - Az 2010, Azərbaycan<br>Cavadxan küç. 12<br>Tel/faks: (994 22) 56 55 97<br>Qaynar xətt: (088) 202 02 02 | | |
| 1 | Hüquqşünas / ofis | Sevinc | Azərbaycan Beynəlxalq | sevinj@transparency- |

| | | | | |
|---|---|---|---|---|
| | rəhbəri | Məmmədova | Universiteti, Hüquq üzrə bakalavr dərəcəsi | az.org |
| 2 | Layihə köməkçisi | Nicat Hüseynov | Gəncə Dövlət Universiteti, Dilçilik fakültəsinin 3-cü kurs tələbəsi | nijat@transparency-az.org |
| | | **Lənkəran mərkəzi**<br>Lənkəran AZ 4200, Azərbaycan<br>Qala Xiyabanı küç. 12<br>Tel**:** (994 171) 5 09 04<br>Faks: (994 171) 5 17 25<br>Qaynar xətt:(088) 303 03 03 | | |
| 1 | Hüquqşünas | Ehtiram Fəttayev | Azərbaycan Beynəlxalq Universiteti, Hüquq üzrə bakalavr dərəcəsi | etiram@transparency-az.org |
| 2 | Koordinator | Afiq Məlikov | Lənkəran Dövlət Universiteti, Təbiətdən istifadə və təbiəti mühafizə ixtisası üzrə Magistr dərəcəsi | afiq@transparency-az.org |
| | | **Quba mərkəzi**<br>Quba AZ 4000, Azərbaycan<br>Fətəlixan küç, 65<br>Tel/faks**:** (994 169) 5 18 37<br>Qaynar xətt: (088) 404 04 04 | | |
| 1 | Hüquqşünas | Eldar Kərimov | Sankt-Peterburq Dövlət Universiteti, Hüquq ixtisası üzrə magistr dərəcəsi | eldar@transparency-az.org |
| 2 | Koordinator | Samir Əlibəyov | Azərbaycan Dövlət Universiteti, Coğrafiya ixtisası üzrə bakalavr dərəcəsi | samir@transparency-az.org. |
| | | **Şəki mərkəzi**<br>Şəki AZ 5500, Azərbaycan<br>M. Rəsulzadə küç. 177, mən. 3<br>Tel/faks**:** (994 177) 4 26 55<br>Qaynar xətt: (088) 505 05 05 | | |
| 14 | Hüquqşünas | Kəmalə Məmmədova | Dağıstan Dövlət Universiteti, Hüquq ixtisadı üzrə magistr dərəcəsi | kamala@transparency-az.org |
| 15 | Koordinator | Elşən Məmmədov | İqtisadi Universiteti, İqtisadiyyat ixtisası üzrə bakalavr dərəcəsi | elshan@transparency-az.org |

**Maliyyə haqqında məlumat**

**2007-ci ildə bizim donorlarımız**




2007-ci il üçün olan gəlirlərimiz 224,605 avro

2007-ci ilin məxarici 220,440 avro

**Kateqoriyalar üzrə bizim məxaricimiz**



Digər, € 26 012
Şəxsi heyyət, € 101 837
Ofis ləvazimatı və inzibatı xərclər, € 27 463
Səyahət və konfranslar, € 65 128